*Heydər Əliyev - 100*

# Xalq sevgisindən yoğrulan xatirələr

**Tale elə gətirib ki, dünya siyasətçiləri içərisində özünəməxsus yeri olan, sayılıb-seçilən Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan Respublikası Mərkəzi Komitəsinin Birinci Katibi təyin edildiyi 1969-cu ilin yayında mən Naxçıvan Pedaqoji məktəbini bitirərək 19 yaşında müəllimlik diplomu alaraq pedaqoji fəaliyyətə başladım. Ulu Rəhbərin birinci və ikinci hakimiyyət illərindəki bütün uğurları gözümüz önündə baş verirdi. Lakin o zaman Azərbaycan, sovet respublikaları cərgəsində geridə qalan aqrar bölgə kimi tanınırdı. Naxçıvan isə xəritədə ölkədən aralı düşərək bir küncə qısılan ögey bir övlad kimi yad edilirdi.**



Heydər Əliyevin hakimiyyətə gəlişi, Azərbaycan dilində etdiyi şıxışlar (ondan əvvəl olan bütün rəhbərlər həmişə rus dilində çıxiş edərdilər) və irəli sürdüyü tədbirlər ölkədə xalqın ruhunun dirçəlməsinə, oyanışına, yeni bir eranın başlanmasına sanki vəsilə oldu. Ölkədə sənayeləşmənin inkişaf etdirilməsi, iqtisadiyyatın planlı yüksəlişi, gənclərin sovet məkanında təhsil almağa göndərilməsi və qayıdarkən işlə təmin edilməsi xalqda sabaha böyük inam yaratdı.

Azərbaycanı sovet məkanında qaliblər cərgəsinə çıxaran Hedər Əliyev Moskvaya yüksək vəzifəyə aparıldı. Lakin Qorbaçovun və ermənilərin gizli ittifaqının nəticəsi olaraq 1977-ci ildə təqaüdə göndərildi. Moskvada Qorbaçovun yenidənqurma və anarxiya siyasəti, bölgələrdə respublikalararası milli ədavətin qızışdırılması, qanlı qırğınlarla müşayət olunması, 1990-cı ilin yanvarında Bakıya qoşun yeridilərək qırğın törədilməsi sonda SSRİ adlı bir dölətin süqutuna və parçalanmasına gətirib çıxardı.

O zaman Moskvada yaşayan Ulu Öndər yanvarın 21-də Azərbaycan Nümayəndəliyinə gedərək Bakıdakı qırğının Qorbaçov tərəfindən törədildiyini bütün dünyaya bəyan etdi.

**Qarabağ bögəsində, o cümlədən Naxçıvanda erməni hücumları ara vermirdi. Silahsız, əliyalın xalq siahlandırılmış ermənilərə qarşı qəhrəmanlıqla döyüşür və şəhid olurdular.**

Naxçıvanda vəziyyət daha ağır idi. Əliyalın gənclərimiz Sədərək istiqamətində silahlı ermənilərlə döyüşə ov tüfəngi ilə girirdilər. Analar əllərini göylərə açaraq Tanrıdan kömək diləyirdilər. Belə bir zamanda Heydər Əliyev xalqına dayaq olmaq üçün Vətəninə qayıdırdı. Hadisələrin gərgin dövründə Onun bu gəlişini "Naxçıvan haqqında pallada" poemamda aşağıdakı misralarla qələmə almışdım:

Çən yatmışdı hər yana,
Gəlmişdi çovğunlu qış.
Səni yaman didirdi,
Yağılar qarış- qarış.
Naşı "rəhbərlərin"
Dörd olmuşdu gözləri.
Kürsü hərislərinin,
Bükülmüşdü dizləri.
Daha nə danışsalar,
Xalq inanmır sözünə.
Özlərinin inamı,
Qalmamışdı özünə
Erməni hücumları,
Çaşdırmışdı onları.
Daha çıxış yoluna,
Yox idi gümanları.
İgidlər qan tökürdü.
**Bütün sərhəd boyunca,**
**Neçəsi kam almadı**
**Bu həyatdan doyunca.**
**Analar göz yaşıyla,**
**Göylərə əl açırdı.**
**Xalqımın Ümidgahı,**
Vətəninə uçurdu.
Günəş öz ziyasıyla,
Yoluna nur saçırdı.
Tanrının göndərdiyi
Nicat işığı idi.
Tanrının vergisiydi,
Vətən aşiqi idi.
Gətirirdi o nuru,
Yaya bütün cahana.
Nicat yolu göstərə,
Doğma Azərbaycana.

**Naxçıvanlılar həmin gün hava limanına Moskvadan doğma vətəni Naxçıvana qayıdan əziz rəhbərini, hamının o çətin günlərdə ümidlə, inamla yolunu gözlədiyi Heydər Əliyevi qarşılamağa gəlmişdilər. Boyunlarına qırmızı bağlanmış qurbanlıqlar bir tərəfdə düzülmüşdülər. Hamının gözü sonsuz asimandan əziz qonağı gətirəcək təyyarənin gəlişini gözləyirdilər. Mən isə bu zaman yazırdım ki:**

Bütün el yığışıbdı,
Hava limanındadı.
Ulu Öndərim gəlir,
Allah amanındadı.
Təyyarə süzüb yenir,
Gümüşü qanadıyla.
Alqış səsi yüksəlir,
Heydər, Heydər adıyla.
Təyyarənin önündə,
Ayağının altına,
Neçə qurban düzüldü.
Həmin gün tariximə,
Yeni tarix yazıldı.
Sevincli göz yaşları,
Üzdə şırım açırdı.
Hamı Vətən oğlunun,
Hamı Ulu Heydərin,
Qabağına qaçırdı.
Gəlirdi xalqa sarı,
O, öz dağ gövdəsiylə.
Gəlirdi xalqa sarı,
Gülümsər çöhrəsiylə.
Siyasət aləminin,
Sərkərdəsi gəlirdi.
Xalqımın ümidgahı,
Haqqın səsi gəlirdi.
Gəlirdi-
Xalqa sarı,
Xalqın oğlu gəlirdi!
Kamalı, düşüncəsi,
Xalqın ağlı gəlirdi!..

Həmin gün- 22 iyul 1990-cı il tarixində Naxşıvanın mərkəzi meydanı insan selindən dolub-daşırdı. Hər tərəfdən insanlar sevinə-sevinə, sevə-sevə Heydər Əliyevi görməyə tələsirdilər.Hamı bir-birini təbrik edir, gözaydınlığı verirdilər. Onun meydandan xalqa müraciəti ürəklərdə böyük bir ümid çırağı yandırdı. Artıq bir gün sonra o zaman Naxçıvan MR Vilayət Partiya Komitəsinin Birinci katibi mərhum Afiyəddin Cəlilovla birgə erməni hücumlarına məruz qalan Sədərək, Şada, Gərməçataq, Ordubad və digər mühüm bögələrini nəzərdən keçirməyə başladı. Böyük səbrsizliklə yolunu gözlədikləri Ulu Öndərin gəlişi ilə insanlar rahat nəfəs aldılar. Mən də insanların inamımı və rahatlığını görərək yazırdım:

Düşmən əhatəsində,
Boğulan insanların,
Nicat işığı gəldi.
**Elini qəlbən sevən,**
**Vətən aşiqi gəldi.**
**Könüllərin ümidi,**
**Bir elin qibləgahı.**
**Hər evin ümidgahı,**
**Gəldi nurlu sabahı.**

Heydər adı - nur olub,
Qapı-qapı dolandı.
Yanar çırağa dönüb,
Ürəklərdə qalandı.
Heydər adı - səngərdə,
Gücə, qüvvəyə döndü.
O tayda düşmənlərin,
Ümid çırağı söndü.
Dünyaya bağlı olan,
Açdı bütün yolları.
Aclıqdan, səfalətdən
Qurtardı bu elləri.
Öz ağlı, kamalıyla,
Qaranlıqdan, zülmətdən,
Sabaha yol açdı O!
Günəş kimi parlayıb,
Elə şəfəq saçdı O!

Bu gün 100 illiyini hörmətlə anaraq qeyd etdiyimiz Ulu Öndərin 1990-93-cü illərdə blokadada qalan Naxçıvanı aclğın məngənəsindən qurtarmaq üçün gecə-gündüz çalışmasını böyük minnətdarlıq və qürur hissiylə yad edirik. Onun çəxsi dostluğunun nəticəsi idi ki, Türkiyə Respublikasının Baş Naziri mərhum Süleyman Dəmirəllə görüşərək Dilucu məntəqəsi ərazisində Araz üzərindən müvəqqəti körpünün hazırlanmasına və bu yolla ərzaq daşınmasına nail oldu. Sonralar həmin ərazydə bugünkü böyük körpünün və Dilucu gömrük keçid məntəqəsinin yaranmasına vəsilə oldu. Bunula da bu körpü sanki aclıq məngənəsində boğulmaqda olan Naxçıvanın həyat nəfəsliyinə çevrildi.

**Heydər Əliyevin 3 sentyabr 1991-ci ildə Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi və ilk gündən bölgənin müdafiəsi üçün həyata keçirdiyi tədbirlər Naxçıvanın erməni təcavüzündən qurtarmasına səbəb oldu. Bununla da Naxçıvanlılarda sabaha böyük inam yarandı.**

Naxçıvanda sabitliyi bərpa etməyə nail olan Ulu Öndər 9 iyun 1993-cü il tarixdə Bakıya - Azərbaycanı parçalanmadan qurtarmaq üçün yola düşərkən, Ali Məclisin qabağına yığlanların içindən bir qadın çıxaraq Ulu Öndərə: "Yoldaş Əliyev, bizi başsız qoyub hara gedirsiniz?"- deyə müraciət etdi. Heydər Əliyev gülümsünərək qoşa barmağını yuxarı qaldıraraq: darıxmayın, iki günlüyə gedirəm, qayıdacağam- deyərək, onu hava limanına aparacaq avtomobilə əyləşdi... (Həmin il Rəhbərin 1990-1993- cü illərdəki siyasi həyatını əhatə edən "Qortuluşa gedən yol" tarixi dramını qələmə aldım).

**Bu gediş günlərə, aylara və illərə dönərək Azərbaycanı dövlətlər cərgəsində sayılıb seçilən müstəqil bir dövlətə çevirdi.**

**Dos. Həsənəli Eyvazlı,**
**Naxçıvan Müəllimlər İnstitutu, kafedra müdiri,**
**şair-dramaturq**



Azad Azərbaycan.- 2023- cü il.- 10 mart.- S. 6.